AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# VICTORY OF AZERBAIJAN IN THE 44-DAY PATRIOTIC WAR

**Nurulla Aliyev**[1]
**Sevinj Alakbarova**[2]

**UDC:** 355.02(479.24):94(479.24)“2020/2023”
**LBC:** 68.35(5Aze):63.3(5Aze)7
**HoS:** 175
**doi**: 10.33864/2790-0037.2026.v7.i2.297-309

**Keywords:**

National interests, State-building, Foreign policy, Legal acts, Principles of international law, Security system

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Military-Political History

## ABSTRACT

This article analyzes the history of army building, the evolution of military education, and the recent innovations within the military education system as fundamental pillars of the Republic of Azerbaijan's institutional development following the restoration of its independence. The authors investigate the objectives and outcomes of systemic reforms carried out under the leadership of National Leader Heydar Aliyev, who played an indispensable role in establishing a professional officer corps and modernizing military training. Furthermore, the study examines the strategic activities of President Ilham Aliyev, analyzing his contributions toward strengthening the independent state, the implementation of tasks arising from the National Security Concept, and the fundamental principles of Azerbaijan’s foreign policy. The research highlights the recent advancements in national security and the structural development of the Armed Forces, specifically focusing on the establishment of modern requirements for officer training. The authors emphasize that the rapid development across all spheres of state building has facilitated successful foreign policy initiatives, the creation of new cooperation formats, and active participation in global projects. Special attention is given to the measures taken to ensure national security and the significant innovations in army building during the post-war period. Finally, the article underscores the 44-day Patriotic War and the 2023 local anti-terror measures achieved through the multifaceted and intensive leadership of President Ilham Aliyev as historic milestones that successfully restored Azerbaijan’s territorial integrity and state sovereignty.

[1] Doctor of Historical Sciences, Professor,
National Defence University; Baku, Azerbaijan
E-mail: nurullaliyev@mail.ru
https://orcid.org/0009-0007-7746-710X
[2] Associate Professor,
National Defence University; Baku, Azerbaijan
E-mail: sevaelekberova1975@gmail.com
https://orcid.org/0009-0008-0446-7958
**To cite this article:** Aliyev, N., & Alakbarova, S. [2026]. Victory of Azerbaijan in the 44-Day Patriotic War. *History of Science journal*, *7*(2), pp.297-309.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.297-309

***Article history:***
*Received: 11 January 2026*
*Revised: 12 February 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN QƏLƏBƏSİ

**Nurulla Əliyev**[1]
**Sevinc Ələkbərova**[2]

**UOT:** 355.02(479.24):94(479.24)"2020/2023"
**KBT:** 68.35(5Aze):63.3(5Aze)7
**HoS:** 175
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.297-309

**Açar sözlər:**

Milli maraqlar, Dövlət quruculuğu, Xarici siyasət, Hüquqi aktlar, Beynəlxalq hüquq prinsipləri, Təhlükəsizlik sistemi

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Hərbi-Siyasi Tarix

## ANNOTASİYA

Məqalədə Azərbaycan Respublikası yenidən müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə ölkəmizdə dövlətin institusional inkişafının əsas istiqamətlərindən olan ordu quruculuğu tarixi, hərbi təhsilin inkişafı, hərbi təhsildə baş vermiş yeniliklər təhlil olunur. Bu taleəhəmiyyətli vəzifələrin həyata keçirilməsində xüsusi rola malik Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda zabit kadrlarının hazırlanması sahəsində həyata keçirilən sistemli islahatların məqsəd və nəticələri müəlliflər tərəfindən araşdırılmışdır. Məqalədə həmçinin Prezident İlham Əliyevin fəaliyyətinə də nəzər salınır, ölkə başçısı kimi onun müstəqil dövlətin gücləndirilməsi istiqamətində həyata keçirdiyi işlər təhlil edilir, milli təhlükəsizlik konsepsiyasından irəli gələn vəzifələr, İlham Əliyevin Azərbaycanın xarici siyasət kursunun prinsipial əsasları şərh edilir. Son illərdə Azərbaycan Respublikasının milli təhlükəsizliyi və Silahlı Qüvvələrdə aparılan quruculuq işləri, zabit kadrlarının hazırlığı sahəsində yeni tələblərin işlənməsi və təşkili məqalədə ön plana çəkilir. Müəlliflər Azərbaycanda müstəqil dövlət quruculuğunun bütün sahələri üzrə sürətli inkişafa nail olunması nəticəsində uğurlu xarici siyasətin, yeni əməkdaşlıq formatlarının yaradılması, qlobal layihələrdə aktiv iştirak, milli təhlükəsizliyin təmini və postmüharibə dövründə ordu quruculuğu istiqamətində ciddi yeniliklərin əldə olunması üçün görülən tədbirlərin araşdırılmasını əsas vəzifələr kimi qarşıya qoyublar. Eyni zamanda məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxşaxəli və intensiv fəaliyyəti sayəsində uğurla nəticələnən 44 günlük Vətən müharibəsi və 2023-cü il lokal xarakterli antiterror tədbirləri Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyinin bərpası istiqamətində böyük tarixi nailiyyət kimi qeyd olunur.

[1] Tarix üzrə fəlsəfə doktoru, Professor,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: nurullaliyev@mail.ru
https://orcid.org/0009-0007-7746-710X
[2] Dosent,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: sevaelekberova1975@gmail.com
https://orcid.org/0009-0008-0446-7958

**Məqaləyə istinad:** Əliyev, N., & Ələkbərova, S. [2026]. 44 Günlük Vətən Müharibəsində Azərbaycanın Qələbəsi. *History of Science jurnalı*, *7*(2), səh.297-309.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.297-309

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 11.01.2026*
*Yenidən baxılıb: 12.02.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ПОБЕДА АЗЕРБАЙДЖАНА В 44-Х ДНЕВНОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ

**Нурулла Алиев**[1]
**Севиндж Алекперова**[2]

**УДК:** 355.02(479.24):94(479.24)“2020/2023”
**ББК:** 68.35(5Азе):63.3(5Азе)7
**HoS:** 175
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.297-309

**Ключевые слова:**

Национальные интересы,
Государственное строительство,
Внешняя политика,
Правовые акты,
Принципы международного права,
Система безопасности

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Военно-политическая история

## АННОТАЦИЯ

В статье анализируются история строительства вооружённых сил, развитие военного образования и инновации в этой сфере как одно из основных направлений институционального развития Азербайджанской Республики после восстановления государственной независимости. Авторами исследуются цели и результаты системных реформ в области подготовки офицерских кадров, осуществлённых под руководством Общенационального лидера Гейдара Алиева, сыгравшего исключительную роль в реализации этих судьбоносных задач. В статье также рассматривается деятельность Президента Азербайджанской Республики Ильхама Алиева как главы государства по укреплению независимости страны, излагаются задачи, вытекающие из концепции национальной безопасности, анализируются принципиальные основы внешнеполитического курса Азербайджана. Особое внимание уделяется вопросам национальной безопасности Азербайджанской Республики и проводимых реформ в Вооружённых силах за последние годы, а также разработке и организации новых требований в сфере подготовки офицерских кадров. Авторы ставят в качестве основных задач исследование мер, направленных на достижение успешной внешней политики, создание новых форматов сотрудничества, активное участие в глобальных проектах, обеспечение национальной безопасности и внедрение серьёзных инноваций в военном строительстве в послевоенный период. В то же время в статье отмечаются итоги 44-дневной Отечественной войны и локальных антитеррористических мероприятий 2023 года, успешно завершившиеся благодаря многогранной и интенсивной деятельности Президента Азербайджанской Республики Ильхама Алиева, имевшее историческое достижение в восстановлении территориальной целостности и государственного суверенитета страны.

[1] Доктор исторических наук, Профессор,
Национальный университет обороны; Баку, Азербайджан
E-mail: nurullaliyev@mail.ru
https://orcid.org/0009-0007-7746-710X
[2] Доцент,
Национальный университет обороны; Баку, Азербайджан
E-mail: sevaelekberova1975@gmail.com
https://orcid.org/0009-0008-0446-7958
**Цитировать статью:** Алиев, Н., & Алекперова, С. [2026]. Победа Азербайджана в 44-Х Дневной Отечественной Войне. *Журнал History of Science*, *7*(2), с.297-309.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.297-309

***История статьи:***
*Поступила: 11.01.2026*
*Переработана: 12.02.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Dünyanın qlobal keçid mərhələsində Azərbaycan dövləti xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğuladığı kimi, "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olub".

Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayıb, öz ideallarına həmişə sadiq qalıb və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edib.

Qeyd edək ki, tarixin həlledici dövrlərindən birini yaşayan Azərbaycan xalqının öz müstəqil-liyini qoruyub möhkəmləndirməsi ondan dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da xüsusi aktuallıq və strateji əhəmiyyət kəsb edən işlərin görülməsini tələb edirdi. Məhz, bu dövrdə Cənubi Qafqaz regionu ətrafında gedən kəskin geosiyasi mübarizə Azərbaycan Respublikasının rəhbərliyindən bu regionda özünün geostrateji rolunu dəqiq müəyyənləşdirməklə yanaşı, ölkənin ərazi bütövlüyü məsələsinin hərbi-siyasi həllini təmin etmək, Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etmək və bölgədə uzunmüddətli sülhü bərqərar etmək üçün bu istiqamətdə fəal və ardıcıl xarici siyasət yeritməyi, eyni zamanda dövlətin Silahlı Qüvvələrini yüksək döyüş hazırlığı vəziyyətində saxlamağı əsas vəzifəsi kimi dururdu. Beynəlxalq strukturlar və xüsusilə də, ATƏT-in Minsk Qrupu tərəfindən bu problemin həllinin uzadılması, Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən imtina etməsi, Birinci Qarabağ müharibəsində ermənilər tərəfindən işğal olunmuş torpaqların hərbi-güc yolu ilə geri qaytarılmasını zəruri edirdi. Ermənistan-Azərbaycan münaqişəsinin təhlili göstərdi ki, Avrasiyanın yeni geosiyasi strukturunda həlledici rol oynamış, bütün Qafqazın və Yaxın Şərqin regional təhlükəsizliyinin və sabitliyinin mənbəyi olmuşdur. Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsində, Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsində Azərbaycan Respublikasının rəhbərliyi, problemin, ölkəmizin ərazi bütövlüyünün qorunması şərti ilə, beynəlxalq hüquq normaları əsasında həlli yolunu müdafiə etmişdir.

## 2.Heydər Əliyev və ordu quruculuğu

Ordu quruculuğu dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi uzun sürən mürəkkəb bir prosesdir. Dövlətin müqəddəratı və cəmiyyətin siyasi sabitliyi birbaşa, bütövlükdə, bu sahədə qarşıda duran məsələlərin vaxtında və lazımi səviyyədə həll edilməsindən asılıdır. Ordu nə qədər tez qurularsa, dövlətin ərazi bütövlüyünə də etibarlı təminat o dərəcədə tez yaradıla bilər. Azərbaycanda ordu quruculuğuna başlanan dövrün təhlili göstərir ki, Silahlı Qüvvələrin yaradılması çox mürəkkəb bir tarixi şəraitdə başlanılmışdır.

Hərbi quruculuq mərhələsinin təhlili göstərdi ki, 1993-cü ilin ikinci yarısında respublikada bu sahədə köklü dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin diqqət və qayğısından sonra başlandı, orduda, donanmada, eləcə də, hərbi təhsil müəssisələrində müsbət dəyişikliklər baş verdi. Çox mürəkkəb bir tarixi şəraitdə başlamış Azərbaycan ordusunun formalaşma prosesi 1993-cü ilin noyabr ayından, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir [Piriyev & Əliyev, 2019, s.10-11].

Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nəinki orduda hərbi vətən-pərvərlik ruhunun artırılması işinə rəhbərlik edir, həm də özü bilavasitə bu işdə

yüksək fəallıq göstərirdi. Ali Baş Komandan Heydər Əliyevin bu istiqamətdə apardığı işlərin nəticəsində ordu daxi-lində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı. Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsində Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993-cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələsi müzakirə edildi və bununla bağlı Milli Məclisin daimi komissiyasının yaradılması haqqında qərar qəbul edildi.

Bu dövrdə Ulu Öndər Heydər Əliyevin göstəriş və sərəncamları ilə Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun yenidən qurulması və ciddi struktur dəyişikləiklərinə başlandı. Ordu və Müdafiə Nazirliyi qeyri-sağlam qüvvələrdən təmizləndi, orduya yeni qüvvələr cəlb edildi, ordu quruculuğunda islahatlar həyata keçirildi. Ordu sıraları siyasi qüvvələrin təsirindən çıxarıldı, ordu daxilində dərinləşməkdə olan çəkişmələr aradan qaldırıldı, vahid komandanlıq prinsipi tətbiq edildi, ordunun təminatı əvvəlki illərdən fərqli olaraq bir qədər yaxşılaşdırıldı.

Azərbaycan Ordusu üçün silah, hərbi texnika, döyüş sursatı və digər maddi vasitələrin alınması ilə paralel yerli müəssisələrdə məhdud silah-sursat istehsalına başlandı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

Görülən işlərin uğurlu nəticəsi 1993-cü ilin sonunda baş verdi. Belə ki, ilk dəfə Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam istiqamətlərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Horadiz istiqamətində əks-hücuma keçən Silahlı Qüvvələrin qruplaşması işğal olunan ərazilərimizin bir hissəsini azad etməklə bərabər düşmənin bu istiqamətdə mövcud olan qüvvələrini darmadağın etdilər. Bununla da işğalçı Ermənistan 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu. Bundan sonra isə Azərbaycan Silahlı Qüvvələrinin yenidən qurulması üçün münbit şərait yarandı. Bundan sonra Türkiyə ilə hərbi sahədə əməkdaşlıq istiqamətində mühüm addımlar atıldı.

Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 22 mayda imzaladığı fərmanla Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpasında mühüm addım atıldı və 26 İyun Silahlı Qüvvələr Günü elan olundu [Abbasova, 2025, s.199].

Ordu quruculuğu sahəsində Ulu Öndərin fərman və sərəncamları ilə ölkədə müasir Milli Ordunun yaradılması, silahlı qüvvələr üçün kadr hazırlığının strateji istiqamətləri müəyyənləşdi və bu prosesin uğurla həyata keçirilməsinə imkan verdi.

Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr probleminin aradan qaldırılması üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yerləşmiş qoşun hissələrində xidmət edən Azərbaycanlı zabitlərin Vətənə qayıtmasına xüsusi diqqət və qayğı göstərildi. Bununla bərabər, Milli Ordunun peşəkar zabit kadrları ilə təmin olunması üçün hərbi təhsilin inkişafına xüsusi diqqət ayrıldı.

Ümummilli Lider Heydər Əliyev döyüş bölgələrindəki görüşlərindən birində vaxtı ilə C.Naxçıvanski adına ixtisaslaşmış ibtidai-hərbi məktəbdə təhsil almış və MDB-nin Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük qisminin hələ də respublikaya qayıtmamasına öz təəssüfünü bildirərək qeyd edirdi ki, Azərbaycanın bu gün peşəkar hərbi qulluqçulara daha çox ehtiyacı var. Ona görə də Ali Baş Komandan respublikadan kənarda xidmət edən hərbi qulluqçuların Vətənə qayıtması məsələsinin həllini Müdafiə Nazirliyi qarşısında əsas vəzifə kimi qoymuşdu.

Bu dövrdə Silahlı Qüvvələrdə gedən quruculuq işinin təhlili göstərir ki, bacarıqlı və sağlam zabit korpusunun böyük hissəsi C.Naxçıvanski adına ibtidai-hərbi məktəbin məzunlarıdır.

Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və fədakarlığı sayəsində yaradılan C.Naxçıvanski adına Hərbi Lisey nəinki Azərbaycanda, ümumiyyətlə, keçmiş SSRİ

məkanında öz yüksək keyfiyyət göstəriciləri ilə daim öndə gedir və seçilirdi [Süleymanov, 2018, s.105-106].

O dövrü Azərbaycanda təhsildə baş verən tarixi hadisələri və Heydər Əliyevin bu sahədə aparılan fəaliyyətinə nəzər salaraq vurğulanmalıdır ki, bu məktəbin təsis edilməsinə görə Heydər Əliyevin İttifaq mərkəzindən böyük təzyiqlərə məruz qalması artıq məlum faktdır. Heydər Əliyevin qətiyyəti nəticəsində bu xüsusi internat məktəb bağlanmadı, əksinə onun fəaliyyətinin yaxşılaşdırılması üçün lazımi qərarlar qəbul edildi [Fərəcov & Qurbanov, 2023, s.2].

Həqiqətdir ki, Ümummilli Lider Heydər Əliyev yarım əsr bundan öncə ixtisaslaşdırılmış hərbi məktəb yaratmaq təşəbbüsünü irəli sürərkən, Azərbaycanın gələcəyini, onun strateji maraqlarını düşünmüşdür. 1996-cı ildə Ali Baş Komandan deyirdi: "25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm".

Heydər Əliyev ordunun möhkəmlənməsində zabit heyətinin təsirinin mümkünlüyünü qeyd edir və bu məsələyə diqqət yetirilməsinin vacibliyini bildirirdi. Heydər Əliyevin qeydlərinə görə, bütün müsbət hallara baxmayaraq, ordu daxilində vəzifə səlahiyyətlərinə məsuliyyətsizcəsinə yanaşanlar da tapılırdı.

2000-ci ildə Heydər Əliyev bildirirdi ki, ordu bəlalərindən artıq təmizlənməkdədir. Lakin xidməti vəzifəsinə laqeydliklə yanaşan zabitlərin hələ də Azərbaycan Ordusunda qaldığı bildirilirdi. Heydər Əliyev belə zabitlərin ordu sıralarından uzaqlaşdırılmasını qətiyyətlə tələb edirdi. Bununla belə bir mövqe ortaya qoyulurdu ki, ordu daxilində sağlam niyyətə malik olmayan zabitlər tabeliyində olan şəxsi heyətdə də xidmətə münasibətdə sağlam yanaşma formalaşdıra bilməzdilər. Başqa sözlə, bununla həm də ordu quruculuğunda zabit heyətinin xüsusi rola və təsirə malik olması vurğulanırdı [Abdullayev, 2018, s.322].

Heydər Əliyev ordu quruculuğuna irəli sürdüyü mühüm tələblərdən biri bu idi ki, gərək orduda yüksək vətənpərvərlik ruhu olsun, gərək orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycanın Ali Baş Komandanına daimi sədaqət olsun. Bu keyfiyyətlərin əldə edilməsinin əsas yollarından biri isə məhz zabit heyətinin vətəndaşlıq mövqeyindən, xidmətə sədaqətli münasibətindən, həvalə olunmuş vəzifələrin icrasına ardıcıllığından irəli gəlirdi. Ona görə də Heydər Əliyev tövsiyə edirdi ki, hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Çünki mənəvi saflıq insanı yüksəldir və başqa müsbət keyfiyyətlərin də onda formalaşmasına kömək edir.

Azərbaycanın müstəqilliyinə sədaqət nümayiş etdirən, mənəviyyatca saf olan zabit kadrları-nın hazırlanması üçün Heydər Əliyev hərbi təhsil sisteminin yaradılmasına və möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Məlumdur ki, hələ SSRİ dövründə Heydər Əliyev bu mühüm sahədə dəyərli işlər görmüşdü və milli hərbi kadrlar hazırlığı üçün qiymətli bir baza yaratmışdı [Mahmudov, 2002, s.94]. Ona görə də müstəqillik illərində hərbi təhsil bazasının daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün əlverişli imkan mövcud idi.

Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini həyata keçirdi. Əsası C.Naxçıvanski adına Hərbi Liseylə qoyulan hərbi təhsil müəssisələrinin sayı ali hərbi təhsil ocaqları hesabına daha da genişləndi və zabit kadrların hazırlanmasında geniş islahatlar keçirildi.

Bunun nəticəsi idi ki, öz həyatını zabit peşəsinə həsr edən gənclərin də bu məktəblərə axını başladı. Heydər Əliyev zabit peşəsini seçən gəncləri belə qiymətləndirirdi: "Vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir

Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun çox güclü ordusu bu gün də, gələcəkdə də olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra heç bir tərəfdən işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, dünyada məşhur olan və dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun. Biz bunu gözləyirik. Tam inanıram ki, Azərbaycan gəncləri içərisindən yaxın gələcəkdə belə sərkərdələr çıxacaq. Onlar nəinki Azərbaycanda, bütün dünyada tanınan sərkərdələr olacaq".

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qurucusu Heydər Əliyev bu sahəyə diqqəti daha da artıraraq Azərbaycanda mükəmməl hərbi təhsil sistemini təşkilatlandırdı.

Ümumilikdə, 1993-cü ilin ortalarında Silahlı Qüvvələrin planlı və intensiv formalaşdırılması, bir neçə ildən sonra yeni hərbi təhsil sisteminin yaradılması öz səmərəli nəticələrini verdi. Həyata keçirilən müvafiq tədbirlər sayəsində Azərbaycan Respublikasında hərbi təhsil sisteminin yenidən qurulmasında nəzərə çarpacaq dönüş yarandı, onun gələcək islahatı və inkişafı üçün möhkəm zəmin hazırlandı. Bu islahatda Ulu Öndər Heydər Əliyevin "Bizim ölkənin gələcək taleyi gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır" kəlamının da işığı görünür. Bu islahat ordumuzun gücünün, qüdrətinin yüksəlməsi baxımından əhəmiyyətli olmasını nümayiş etdirdi. Hərbi təlim və təhsil prosesinə müasir döyüş üsullarının tətbiqi zabit kadrlarının daha yaxşı hazırlanması və qoşunların keyfiyyətcə yeni döyüş şəraitinə uyğunlaşdırılmasına imkan verdi. Yeni struktura və qarşıya qoyulan vəzifələrə uyğun olaraq, onların ixtisas və peşəkarlıq səviyyəsinin yüksəldilməsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinə təcavüzkar qüvvənin qarşısını almasına və yüksək döyüş hazırlığını saxlamasına, dövlətin ərazi bütövlüyünün bərpası üzrə əməliyyat və strateji vəzifələrinin səmərəli yerinə yetirilməsinin və milli maraqların qorunmasının tam təmin edilməsinə imkan verdi.

**3.Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında İlham Əliyevin strategiyası**

Muasir dövrdə ölkəmizdə Silahlı Qüvvələrimiz üçün peşəkar kadr hazırlayan, geniş imkanlara malik hərbi təhsil ocaqları fəaliyyət göstərir və dövlətin təhlükəsizliyinin təmin olmasında öz töhfəsini verir. Azərbaycanda hərbi ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin artırılmasında, onun təhlükəsizliyinin təmin olması sahəsində böyük nailiyyətlər əldə etmişdir [7, s.16-17].

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğı sayəsində Azərbaycan bu gün regionda ən güclü orduya malikdir. Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyaraq Ermənistanın işğal olunmuş torpaqlarını azad olunmasını əsas vəzifəsi kimi görürdü. 2016-cı il Aprel döyüşləri zamanı uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqların Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. Nəticədə minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edərək Lələtəpə və Ağdərə dağlarında Azərbaycan bayrağını dalğalandırmışdır.

2016-cı ilin Aprel döyüşlərindən sonra keçirilən əməliyyatlarda Azərbaycan Ordusunun erməni təcavüzkarlarına sərt cavab zərbələri bunun sübutu idi.

2018-ci il may ayında Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı azad edildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi: «Bu əməliyyatlar bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur» [AZƏRTAC,

2018]. Əldə edilən qələbələr Azərbaycan xalqının və ordusunun Ali Baş Komandan İlham Əliyevə sədaqət və ehtiramının təntənəsi olmaqla yanaşı, Silahlı Qüvvələrinin güc və qüdrətinin nümayişinin əyani təzahürü oldu.

2020-ci ilin iyulun 12-15 iyul tarixlərində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi. Bu əməliyyat bizim növbəti şanlı qələbəmizdir. 2020-ci ilin iyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin keçirilən iclasında qeyd etmişdi ki, "Bu günlər ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarla erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir. Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq." Həmin ilin avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. Həmin diversiya qrupu da zərərsizləşdirildi. Bu əməliyyatlarda Milli Müdafiə Universitetinin məzunlarının iştirakı ilə ölkə tarixinə daha bir şanlı səhifə yazmaqla Azərbaycan Ordusunun gücünü göstərdi və işğal olunmuş əraziləri qaytarmaq səylərini dünyaya nümayiş etdirdi [İbayev, 2025, s.19].

Eyni zamanda bu əməliyyatlar mövcud vəziyyəti birdəfəlik dəyişdi və Ermənistan – Azərbaycan münaqişəsinin nizamlanmasında status-kvonun saxlanmasının yolverilməz olduğunu sübut etdi. Erməni hərbi qüvvələri tərəfindən törədilən təxribatların qarşısını alarkən Azərbaycan Ordusunun göstərdiyi şücaət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yüksək qiyməti və xalqın böyük ehtiramı ilə qarşılandı.

Bunun nəticəsi kimi Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatında Azərbaycan Ordusunun qazandığı şanlı qələbə dünya hərb tarixinə qızıl hərflərlə düşdü. Belə ki, sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxdı. Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Vətən müharibəsi Azərbaycanın hərbi və siyasi Qələbəsi ilə başa çatdı.

İkinci Qarabağ müharibəsində möhtəşəm Qələbə xalqın 30 illik torpaq həsrətinə son qoymaqla yanaşı, Azərbaycanda illərdir güclü dövlət quruculuğu istiqamətində həyata keçirilən strategiyanın və müəyyən hədəflərə hesablanmış siyasətin məntiqi nəticəsi oldu. Azərbaycan gücləndi, qüdrətləndi, hərbi potensialını daha da artırdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdırdı, Ermənistanın və ona havadarlıq edən dövlətlərin 30 ilə yaxın imitasiya naminə apardıqları danışıqların əsl mahiyyətini açıqlayaraq bir daha belə bir reallığı da ortaya qoydu ki, düşmən heç vaxt Azərbaycanın işğal olunmuş torpaqlarını öz xoşu ilə geri qaytarmaq istəyində olmayıb. Ermənilərin işğal edilmiş torpaqlarda qurduqları istehkamlar da bunu təsdiqləyirdi. Lakin Azərbaycan Ordusu öz gücü, qüdrəti sayəsində bu istehkamları, düşmənin hərbi texnikasını məhv etdi, hər günü tarixə qələbə səhifəsi kimi yazdı. Döyüş meydanında Azərbaycanın Qələbəsi 10 noyabr üçtərəfli Bəyanatının imzalanmasını şərtləndirdi [Əliyev, 2025, s.120].

Azərbaycan 30 ildən artıq gözlədiyi ədaləti, beynəlxalq hüququ bərpa etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdi. Azərbaycan münaqişənin həlli prosesini uzatmaq üçün illərdir beynəlxalq ictimaiyyəti aldadan Ermənistana və ona bu istəyini yerinə yetirməkdə dəstək göstərən havadarlarına 44 gündə həyata keçirdiyi "Dəmir yumruq"

əməliyyatı ilə göstərdi ki, özü bir güc sahibidir, yeni reallıqlar yaradıb, hər kəs bu reallıqlarla barışmalıdır.

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli mübarizəsi, Ali Baş Komandanının qətiyyətli mövqeyi, Azərbaycan Ordusunun gücü və qüdrəti sayəsində nəinki regionu, bütövlükdə dünyanı erməni terror və faşizm təhlükəsindən xilas etdi. Dünya üzrə müəyyənləşmiş xarici siyasət kursunu dəyişdi, hərb tarixinə yeni səhifə yazdı.

44 günlük Vətən müharibəsində baş verən hadisələrin təhlili göstərdi ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandan kimi prinsipial mövqeyinin, uzaqgörən diplomatiya yürütdüyünün şahidi oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlər və beynəlxalq arenadakı böyük nüfuzu, xalq-iqtidar birliyi Vətən müharibəsində qələbəni şərtləndirən vacib amillərdən oldu.

Möhtərəm Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı siyasət nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır ki, bu da özünü erməni faşizmi üzərində qazanılmış şanlı Qələbə ilə sübut etdi. Ermənistan hərbi birləşmələrinin cəmi 44 gün ərzində məğlub edilməsi Azərbaycan xalqının milli qürur hissini və ləyaqətini özünə qaytardı. Dünya birliyi Vətən müharibəsində Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu və onun ordusunun gücünü gördü.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, "Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir. Hazırda Azərbaycanın İkinci Qarabağ müharibəsində istifadə etdiyi taktiki üsullar dünya hərb elmi üçün yenilik kimi qəbul edilərək beynəlxalq ekspertlər tərəfindən təhlil edilir. Dövlət başçısının qətiyyəti, uğurlu siyasi-diplomatik fəaliyyəti, məğrur, yenilməz Azərbaycan xalqın iradəsi, onun ordusunun gücü, dəmir yumruq kimi birliyi, həmrəyliyi sayəsində Azərbaycanın qazandığı hərbi və siyasi Qələbə ilə "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi artıq tarixə qovuşdu.

Qeyd edilməlidir ki, Vətən müharibəsi zamanı qələbənin qazanılmasında xüsusi təyinatlı təhsil müəssisələrinin böyük rolu olmuşdur. Müharibənin birinci günlərində xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbər heyətinin, zabit və yuxarı sinif kursantlarının bir qismi, Hərbi tibb fakültəsi rezidentləri cəbhə bölgələrində döyüşlərdə iştirak edərək şücaət və qəhrəmanlıq göstərmişlər.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək döyüş tapşırıqlarını uğurla yerinə yetirən Silahlı Qüvvələrin xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçuları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı, müxtəlif orden və medallarla təltif olunmuşlar [Əliyev, 2022, s.1050-1078]. Bu təltiflər Vətən müharibəsində iştirak edən hərbi təhsil müəssisələri qulluqçularının döyüş və xidmətinin İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin təsdiqi idi. Bu, həm də xüsusi təyinatlı təhsil müəssisələrinin milli zabit kadrlarının hazırlığı prosesinə verilən dəyər idi.

Postmünaqişə dövrünün reallıqlarından və hədəflərindən bəhs edərkən qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müdafiə gücümüzün daha da artırılmasına böyük önəm verir və bu istiqamətdə konkret addımlar atır. Yeni hərbi birləşmələrin, ilk növbədə Komando Qüvvələrinin yaradılması, onların hərbi-texniki təchizatının yüksək səviyyədə olması bilavasitə döyüş qabiliyyətinin artırılması üçün önəmli amillərdir.

Vətən müharibəsindən sonra ölkə Silahlı Qüvvələrində aparılan struktur islahatları çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə qarşıya qoyulan və həyata keçirilən məqsəd və vəzifələr hərbi təhsil sahəsində, o cümlədən hərbi elmin və təhsilin inkişafı, qoşunların hazırlanmasında elmi yanaşmanın rolunun artırılması və onların döyüş hazırlığının gücləndirilməsi sahəsində işlər uğurla davam etdirilir. Belə ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yeni təşkilati strukturu təsdiq edilmiş, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 mart 2022-ci il tarixli 1626 nömrəli Fərmanı ilə Milli Müdafiə Universiteti yaradılmışdır [12]. Qəbul edilmiş sənədə əsasən, universitetin tərkibində Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu və Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi, o cümlədən Azərbaycan Ordusunun Təlim-Tədris Mərkəzi, 3 xüsusi təyinatlı Hərbi kollec (Bakı, Gəncə və Naxçıvan), C.Naxçıvanski adına və Heydər Əliyev adına Hərbi liseylər daxil edilmişdir [13].

Həmçinin 2024-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində Azərbaycan Ordusunda İntellektual qabiliyyətli bölmələr yaradılmış və təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda onların karyera inkişafına töhfə vermək məqsədilə Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı yeni konsepsiya tətbiq edilməkdədir. Yeni təlim-təcrübə konsepsiyasına əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı çağırışçılar gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunmaları məqsədilə hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirilməsi nəzərdə tutulmuşdur [Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 2024].

Bütövlükdə, qəbul edilən qərarlarda müharibədən sonrakı dövrdə dövlətin hərbi potensialının gücləndirilməsinin yeni reallıqları, ordunun inkişafı üçün zəruri şərt kimi hərbi elm və təhsilin əhəmiyyəti öz əksini tapmışdır. Eyni zamanda, ölkənin bütün hərbi təhsil sisteminin və yeni yaradılan xüsusi təyinatlı təhsil müəssisələrində idarəetmə strukturunun təkmilləşdirilməsi istiqamətində mühüm addımların atılması, hərbi mütəxəssislərin hazırlanması proqramlarının Türkiyə Respublikasının Milli Müdafiə Universitetində tətbiq edilən proqramlara uyğunlaşdırılması, Azərbaycan Ordusunda peşəkar zabitlərin hazırlanması beynəlxalq standartlara uyğun yüksəltməyə imkan yaratmış və öz bəhrəsini vermişdir. Belə ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni separatizminin və terrorizminin sığındığı "boz zona"nın birdəfəlik ləğv edilməsinin vacib olduğunu nəzərə alaraq 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun keçirtdiyi 23 saatlıq lokal antiterror tədbirləri sayəsində bu problem də həll olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi şəhərimiz olan Xankəndidə dövlət bayrağımızı ucaltdı. Və bununla da bütün ölkə ərazisində Azərbaycanın suveren hüquqlarının bərpa olunması ilə bağlı başlatdığı tarixi hərbi-siyasi prosesdə ikinci mərhələ də yekunlaşmış oldu.

**4.Nəticə**

Beləliklə, Azərbaycan xalqının ölkənin müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi kimi vahid məqsəd ətrafında birləşdirilməsi, onun mübariz ruhunun təşkilatlandırılması və istiqamətləndirilməsi, hərbi və mənəvi potensialının üzə çıxarılması Heydər Əliyevin xüsusi rolu oldu. Heydər Əliyev Azərbaycanda hərbi ənənələrin bərpası, hərbçi peşəsinə münasibətin dəyişdirilməsi üçün yeni bir dövr başladı. Bu mərhələdə Azərbaycanda yeni və müasir ordunun əsası qoyuldu və hərbi quruculuğa yeni bir məzmun verildi.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi milli hərbi təhsil konsepsiyasının tətbiqində, həmçinin zabit kadrlarının hazırlığında ənənə və

müasirliyin üzvi vəhdətini, respublikamızda illər boyu toplanılmış dəyərli təcrübəni də nəzərə almaqla islahatlar aparmağı vacib şərt saymış, bu qiymətli prinsipi rəhbər tutmağı lazım bilmişdir. İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyev daim ordunun formalaşmasında hərbi təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin müdafiəsində onların roluna yüksək qiymət vermişdir. Ordu quruculuğu və onun təcrübədə reallaşdırılması Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində olmuş və müasir standartlara cavab verən Azərbaycan Ordusunu yaradaraq II Qarabağ müharibəsi ərəfəsində keçirilən əməliyyatlarda onun gücünü və imkanlarının nəyə qadir olduğunu əyani şəkildə göstərdi, işğal olunmuş əraziləri qaytarmaq səylərini dünyaya nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çoxşaxəli intensiv fəaliyyəti ilə böyük tarixi dəyişikliyə imza atdı. Ermənistanla Azərbaycan arasında Qarabağ regionu və ona bitişik ərazilər uğrunda təxminən 44 gün davam etmiş müharibə və 2023-cü il 19-20 sentyabr tarixlərində keçirilən uğurlu lokal xarakterli antiterror tədbirləri Azərbaycanın ərazi bütövlüyünü və dövlətin suverenliyinin bərpası ilə nəticələndi. Azərbaycana məğlub olan işğalçı ölkə kapitulyasiya aktı imzalamağa məcbur edildi. Ermənistanın 30 illik işğal siyasətinə son qoyuldu və ölkəmizin bütün ərazisində Konstitusiyanın hüquqi qüvvəsinin bərpasını təmin etdi. Regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq dənizi və Xəzər dənizi hövzələrini birləşdirən "həyat yolu"nun reallaşdırılması yeni inkişaf perspektivləri vəd edir. Azərbaycan Cənubi Qafqazda faktiki olaraq konfrontasiya geosiyasi xəttini sındıraraq, regionu əməkdaşlıq və təhlükəsizlik geosiyasi müstəvisinə çıxardı. Bunun tarixi, siyasi, sosial, mədəni, iqtisadi və hərbi strateji nəticələri özünü göstərməkdədir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İl¬ham Əliyevin orduya diqqət və qayğısı sayəsində hərbi təhsilin maddi-texniki bazası ən müasir və dünya standartlarına uyğun qurularaq, gündən-günə möhkəmlənir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri vahid proqram əsasında inkişaf edir və müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərərək daha da güclənməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu müdafiə siyasəti ordu quruculuğuna, yeni silahların, texnikaların alınmasına, döyüş birləşmələrinin yaradılmasına lazımı dərəcədə dövlət vəsaiti ayrılmasına geniş imkanlar yaradır. Bu da Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsi və öz suveren hüquqlarının qorunması, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləməsi, həmçinin yeni dünya nizamında Azərbaycanın regional güc və birləşdirici amil kimi çıxış etməsinə şərait yaradır.

Hazırda öz xalqının etibarını qazanmış İlham Əliyev, tamamilə, tarixi şəxsiyyət və sərkərdə kimi yalnız Qafqaz miqyasında deyil, ümumiyyətlə unikal fenomen liderdir, o, Azərbaycan dövlətinin milli maraqlarının və suverenliyinin keşiyində layiqincə dayanmışdır.

## 5.REFERENCES


1. Piriyev, H., & Aliyev, N. (2019). *Azerbaijan Republic Armed Forces Military Academy – 20 years*. Baku: AFPoliqrAF, 212 p. (in Azerbaijani)
2. Abbasova, R. (2025). Heydar Aliyev and army building in Azerbaijan. In *Proceedings of the republican scientific-practical conference dedicated to the 102nd anniversary of National Leader Heydar Aliyev and the "Year of Constitution and Sovereignty" on the topic "Heydar Aliyev's state security policy: historical achievements and modern challenges"* (Vol. II, May 7, 2025, pp.196–199). Baku: Heydar Aliyev Academy of the State Security Service. (in Azerbaijani)
3. Suleymanov, M. (2018). *The Heydar Aliyev stage of the Supreme Commander Institution in Azerbaijan*. Baku. (in Azerbaijani)

4. Farajov, A., & Gurbanov, S. (2023, June 21). Founder of national army building. *Yeni Azerbaijan*, (108). (in Azerbaijani)
5. Abdullayev, M. (2018). *History of Azerbaijan*. Baku: Zardabi LTD LLC, 400 p. (in Azerbaijani)
6. Mahmudov, Y. (2002). *The personality of Heydar Aliyev in the history of Azerbaijan*. Baku: Tahsil, 328 p. (in Azerbaijani)
7. (2016). *Fundamentals of the national development and security policy of the Republic of Azerbaijan*. Baku: Zardabi LTD LLC, 700 p. (in Azerbaijani)
8. AZERTAC. (2018, June 26). *A solemn military parade was held in Baku on the occasion of the 100th anniversary of the Armed Forces of Azerbaijan*. Retrieved from https://azertag.az/xeber/Azerbaycan_Silahli_Quvvelerinin_100_illiyi_munasibetile_Bakida_tenteneli_herbi_parad_kechirilib_Azerbaycan_Prezidenti_Ali_Bas_Komandan_Ilham_Aliyev_herbi_paradda_olub_YENILANIB_2_VIDEO-1174822 (in Azerbaijani)
9. Ibayev, V. (2025). *The victorious path of sovereignty: realized ideas, legal foundations and political parallels*. Baku: MM-S, 466 p. (in Azerbaijani)
10. Aliyev, N. (2025). *November 8 Victory Day: the road leading to sovereignty*. Baku: AFPoliqrAF, 216 p. (in Azerbaijani)
11. Aliyev, N. (2022). *Azerbaijan's victory in the Patriotic War* (Information-analytical material). Baku: AFPoliqrAF, 1163 p. (in Azerbaijani)
12. Decree No. 1626 of the President of the Republic of Azerbaijan dated March 5, 2022. (2022, May 20). *National Defense University established in Azerbaijan*. Retrieved from https://aztv.az/az/news/19608/azerbaycanda-milli-mudafie-universiteti-yaradilib (in Azerbaijani)
13. (2022, March 11). *Archive of the Military Academy of the Armed Forces of the Republic of Azerbaijan*. File No. 700. (in Azerbaijani)
14. Ministry of Defense of the Republic of Azerbaijan. (2024, October 15). *Intellectually capable units established in the Azerbaijan Army*. Retrieved from https://mod.gov.az/az/news/azerbaycan-ordusunda-intellektual-qabiliyyetlibolmeler-yaradilib-53129.html (in Azerbaijani)

## ƏDƏBİYYAT

1. Piriyev, H., & Əliyev., N. (2019). *Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyası–20 il*. Bakı: AFPoliqrAF, 212 s.
2. Abbasova, R. (2025). Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu. In *Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə «Konstitusiya və Suverenlik İli»nə həsr olunmuş «Heydər Əliyevin dövlət təhlükəsizliyi siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar» mövzusunda respublika elmi-praktik konfransının materialları* (II cild, 7 may 2025-ci il, s.196–199). Bakı: DTX-nin Heydər Əliyev adına Akademiyası.
3. Süleymanov, M. (2018). *Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi*. Bakı.
4. Fərəcov, Ə., & Qurbanov, S. (2023, 21 iyun). Milli ordu quruculuğunun banisidir. *Yeni Azərbaycan*, (108).
5. Abdullayev, M. (2018). *Azərbaycan tarixi*. Bakı: "Zərdabi LTD" MMC, 400 s.
6. Mahmudov, Y. (2002). *Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti*. Bakı: "Təhsil", 328 s.
7. (2016). *Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik siyasətinin əsasları*. Bakı: "Zərdabi LTD" MMC, 700 s.
8. AZƏRTAC. (2018, 26 iyun). *Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib*. Alınıb:

https://azertag.az/xeber/Azerbaycan_Silahli_Quvvelerinin_100_illiyi_munasibetile_Bakida_tenteneli_herbi_parad_kechirilib_Azerbaycan_Prezidenti_Ali_Bas_Komandan_Ilham_Aliyev_herbi_paradda_olub_YENILANIB_2_VIDEO-1174822

**9.** İbayev, V. (2025). *Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar və siyasi paralellər*. Bakı: "MM-S", 466 s.

**10.** Əliyev, N. (2025). *8 Noyabr Zəfər günü suverenliyə aparan yol.* Bakı: AFpoliqrAF, 216 s.

**11.** Əliyev, N. (2022). *Vətən müharibəsində Azərbaycanın qələbəsi* (İnformasiya-analitik material). Bakı: AFpoligrAF, 1163 s.

**12.** Azərbaycan Respublikası Prezidentinin 5 mart 2022-ci il tarixli 1626 nömrəli Fərman. (2022, 20 May). *Azərbaycanda Milli Müdafiə Universiteti yaradılıb.* Alındı: https://aztv.az/az/news/19608/azerbaycanda-milli-mudafie-universiteti-yaradilib

**13.** (2022, 11 mart). *Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının arxivi*. İş, № 700.

**14.** Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (2024, 15 oktyabr). *Azərbaycan Ordusunda İntellektual qabiliyyətli bölmələr yaradılıb*. Alındı: https://mod.gov.az/az/news/azerbaycan-ordusunda-intellektual-qabiliyyetlibolmeler-yaradilib-53129.html